Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən

2014-cü il ərzində görülmüş işlər haqqında

A R A Y I Ş

GƏNCLƏR SİYASƏTİ

Hesabat dövründə gənclərin vətəndaşlıq tərbiyəsi və ictimai həyatda iştirakı, intellektual və yaradıcı gənclərin inkişafı üçün şəraitin yaradılması, gənclərin təşəbbüslərinin dəstəklənməsi, gənclər siyasəti infrastrukturunun təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, regionda yaşayan gənclərin fəallığının artırılması məsələlərinə xüsusi diqqət ayrılmışdır.

Bir sıra respublika və beynəlxalq səviyyəli tədbirlər Azərbaycanın regionlarında keçirilmiş, həmin tədbirlərdə yerli gənclərin iştirakı yüksək olmuşdur.

"Gənclər evi" şəbəkəsinə Xəzər, Suraxanı və Sabunçu rayonlarında inşa edilmiş müəssisələr daxil olmuşdur. Beləliklə ölkədə "Gənclər evi"nin sayı 30-a çatmışdır. Daha 3 (Sumqayıt, Qaradağ və Binəqədi) "Gənclər ev"lərinin inşası başa çatdırılmışdır və bu obyektlər yaxın vaxtlarda istifadəyə veriləcəkdir. Ölkənin ilk “Gənclərin Sağlamlıq və İstirahət Mərkəzi” Daşkəsəndə yaradılmışdır.

2014-cü ildə 21 ölkədə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri ilə birgə “Mən Azərbaycan haqqında nə bilirəm?” mövzusunda müsabiqələr keçirilmiş, 174 qalibin ölkəmizə səfəri təşkil edilmişdir. Bütövlükdə isə 2011-2014-cü illərdə bu müsabiqə 47 ölkədə keçirilmiş, 3 minədək esse təqdim edilmiş, 437 nəfər müsabiqə qalibi Azərbaycana səfər etmişdir.

Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən “Univiziya” tələbələrin III Milli mahnı və eyni adlı II Beynəlxalq mahnı müsabiqələri keçirilmişdir. Tədbirdə 20 ölkədən 90 nəfər istedadlı tələbə iştirak etmişdir.

26 oktyabr-01 noyabr 2014-cü il tarixlərdə Bakı şəhərində Gənclər siyasəti üzrə Birinci Qlobal Forum keçirilmişdir. Forum Azərbaycan Hökuməti, BMT-nin İnkişaf Proqramı, BMT-nin Baş katibinin Gənclər üzrə xüsusi elçisinin ofisi, YUNESKO və Avropa Şurasının birgə təşkilatçılığı ilə təşkil edilmişdir. Forumda 165 ölkədən 700-dən artıq hökumət nümayəndəsi, ekspert, gənclər təşkilatlarının rəhbərləri və fəal gənclər iştirak etmişdirlər. Forum zamanı 6 plenar və 24 panel sessiyada müzakirələr keçirilmişdir. Eyni zamanda Forum çərçivəsində gənclər siyasətinə cavabdeh olan nazirlərin və digər hökumət nümayəndələrinin iştirakı ilə ikitərəfli görüşlər keçirilmişdir.

12-16 noyabr 2014-cü il tarixlərdə Bakı şəhərində Kompüter oyunları üzrə 6-cı Dünya Çempionatı keçirilmişdir. Çempionatda 34 ölkədən 240 nəfər iştirakçı və rəsmi nümayəndə iştirak etmişdir.

Gənclər təşkilatlarının layihələrinin qismən maliyyələşdirilməsi ilə bağlı 2014-cü ilin yanvar - fevral aylarında Nazirlik tərəfindən növbəti müsabiqə keçirilmişdir. Müsabiqə nəticəsində ümumi məbləği 2.020.559 manat və 115.000 avro olan 110 layihə dəstəklənmişdir.

Ümumilikdə 2014-cü il ərzində 156 tədbir keçirilib, onlardan 122 yerli, 34 isə beynəlxalq səviyyəli olmuşdur. 420 nəfər gənc xarici ölkələrə ezam olunmuş, 2793 nəfər isə Azərbaycan Respublikasında qəbul edilmişdir.

Vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi

17 yanvar 2014-cü il tarixdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında "20 Yanvar hadisələrinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans keçirilmişdir.

31 yanvar 2014-cü il tarixdə "2 fevral – Azərbaycan Gəncləri Günü" münasibəti ilə Müdafiə, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissələrində xidmət edən əsgər və zabit heyəti üçün "Əsgər bayramı" adlı mədəni-kütləvi tədbir keçirilmişdir.

04 mart 2014-cü il tarixdə "Mən Azərbaycanlıyam" milli bilik yarışmasının 4-cü mövsümünün qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

15-17 mart 2014-cü il tarixlərdə "Hünər" IX Vətənpərvərlik mahnıları festivalının seçim turları və final mərhələsi keçirilmişdir.

18 mart 2014-cü il tarixdə Qaradağ rayonu ərazisində yerləşən Dövlət Sərhəd Xidmətinin və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissələrində xidmət edən əsgər və zabit heyəti ilə "Novruz bayramı" münasibəti ilə görüşlər keçirilmişdir. Görüşlər zamanı xidmətdə fərqlənmiş hərbçilər nazirliyin "Fəxri Fərman"ları ilə təltif olunmuş, hərbi hissəyə idman ləvazimatları və hədiyyələr təqdim edilmişdir.

Gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədilə 2014-cü ilin aprel ayında Ağstafa, Qazax, Siyəzən və Şabran rayonlarında mədəni-kütləvi və təbliğat xarakterli tədbirlər keçirilmişdir. Tədbirlər zamanı gənclər qarşısında əlaqədar dövlət orqanlarının nümayəndələri çıxışlar etmiş, incəsənət ustalarının iştirakı ilə konsert proqramları təşkil edilmiş və onlara nazirlik tərəfindən hazırlanmış tövsiyə - yaddaş kitabçaları paylanmışdır.

21-24 aprel 2014-cü il tarixlərdə Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Tacikistan və Moldova Respublikalarından olan gənc ifaçıların iştirakı ilə "Hünər" (Отвага) Beynəlxalq Vətənpərvərlik Mahnıları Festival-Müsabiqəsi keçirilmişdir.

25-26 aprel 2014-cü il tarixlərdə "Cəsurlar" hərbi-idman və turizm oyununun respublika final yarışı keçirilmişdir.

MDB İcraiyyə Komitəsinin "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70-ci ildönümünə hazırlıq görülməsi və onun qeyd edilməsinə dair əsas tədbirlər Planı"na əsasən 05-08

may 2014-cü il tarixlərdə Bakı şəhərində Azərbaycan, Belarus, Qazaxıstan, Qırğız, Tacikistan və Moldova Respublikalarından olan gənclərin iştirakı ilə "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin əldə olunmasında Azərbaycanın töhvəsi" adlı beynəlxalq konfrans keçirilmişdir.

09-10 may 2014-cü il tarixlərdə "Şahin" hərbi-idman oyununun respublika final yarışı keçirilmişdir.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında təbliğ edilməsi məqsədi ilə 2014-cü il may ayında Saatlı və Sabirabad rayonlarında, Şirvan şəhərində, iyun ayında isə Ağsu və Şamaxı rayonlarında "Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfranslar və "Azərbaycançılıq məfkurəsi və gənclik" adlı mədəni-kütləvi tədbirlər keçirilmişdir.

27 may 2014-cü il tarixdə "28 may – Respublika Günü" münasibəti ilə "Azərbaycan gəncliyi və dövlət müstəqilliyimiz" adlı mədəni-kütləvi tədbir keçirilmişdir.

Gənclər arasında vətənpərvərlik ruhunun daha da yüksəldilməsi, diyarşünaslığın inkişaf etdirilməsi və gənclərin yay istirahətinin təmin edilməsi məqsədi ilə 06 iyun - 19 iyul 2014-cü il tarixlərdə Lənkəran şəhərində, Quba, Göygöl, Qax və Xaçmaz rayonlarında "Azərbaycan - doğma diyarımdır" adlı vətənpərvərlik yay-istirahət düşərgələri təşkil edilmişdir. Düşərgələrdə 1490 nəfər gəncin istirahəti təmin edilmişdir.

27-28 iyun 2014-cü il tarixlərdə Quba rayonunda "Quba-Xaçmaz zonası üzrə Gənclərin Folklor Festivalı" keçirilmişdir.

12 noyabr 2014-cü il tarixdə Müdafiə, Fövqəladə Hallar, Daxili İşlər nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissələrində xidmət edən əsgər və zabit heyəti üçün "9 noyabr - Dövlət Bayrağı günü" münasibəti ilə "Bayrağımız qürur mənbəyimizdir" adlı mədəni-kütləvi tədbir keçirilmişdir.

Yaradıcı gənclərlə iş və asudə vaxtın təşkili

2 fevral - Azərbaycan gəncləri günü münasibətilə 3 fevral 2014-cü il tarixdə gənc rəssamların əsərlərindən ibarət sərgi, 5 fevral 2014-cü il tarixdə istedadlı və yaradıcı gənclərin mükafatlandırılması mərasimi keçirilmişdir. 25 nəfər istedadlı və yaradıcı gənc, gənclərin 6 qeyri-hökumət təşkilatı və 5 tələbə-gənclər təşkilatı mükafata layiq görülmüşdür.

5 fevral 2014-cü il tarixdə elm, təhsil, mədəniyyət, ədəbiyyat və ictimai fəaliyyət sahələrində fərqlənmiş 6 nəfər gəncə "Gənclər üçün Prezident Mükafatı" təqdim edilmişdir.

Fevral və avqust aylarında "Breyn-rinq" intellektual oyunu üzrə Azərbaycan çempionatının televiziya layihəsi hazırlanıb, AzTV kanalında yayımlanmışdır.

2014-cü ilin fevral ayında "Breyn-rinq" intellektual oyunu üzrə "Azərbaycan Respublikası Prezidentinin Kuboku uğrunda Beynəlxalq turnir" televiziya layihəsi həyata keçirilmişdir. Turnirdə 11 ölkədən 12 komanda tərkibində 72 nəfər iştirak etmişdir.

2014-cü ilin mart-may aylarında Danimarka Krallığının Kopenhagen şəhərində keçirilən "Eurovision 2014" Beynəlxalq Mahnı Müsabiqəsində Azərbaycan Respublikasının iştirakı ilə bağlı təşkilati və təbliğat işləri aparılmışdır.

14-16 aprel 2014-cü il tarixlərdə gənclər arasında "Mən Azərbaycanda yaşayıram!" adlı fotomüsabiqənin yekunlarına həsr edilmiş sərgi keçirilmişdir.

23-26 aprel 2014-cü il tarixlərdə keçirilən "İslam Dünyası Gənclərinin (20 yaşadək) klassik musiqi ifaçılarının 3-cü Beynəlxalq festival-müsabiqəsi" layihəsi həyata keçirilmişdir. Tədbirə Küveyt, Qırğızıstan, Qazaxıstan, İndoneziya, Özbəkistan, Mərakeş, İran, Türkiyə, Rusiya Federasiyasının Başqırdıstan Respublikası və Azərbaycandan ümumilikdə 47 iştirakçı qatılmışdır.

14-17 may 2014-cü il tarixlərdə ŞHK üzrə Azərbaycan ŞHK Liqasının mövsümünün açılışı həyata keçirilmişdir. Tədbirin 1/8 final mərhələsində xarici komandalarla yanaşı milli komandalar da iştirak etmiş, ümumilikdə 19 komanda yarışmışdır.

26-31 may 2014-cü il tarixlərdə Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası və Gənc tədqiqatçıların Avropa Şurası ilə birgə "Gənc Alimlərin Beynəlxalq Bakı Forumu" keçirilmişdir. Forumda texniki elmlər, səhiyyə, biologiya, kimya, ekologiya, torpaq elmləri, kənd təsərrüfatı, iqtisadiyyat və sosiologiya sahələri üzrə müzakirələrə dünyanın 96 ölkəsindən 400-dək iştirakçı qatılmışdır.

30 may-02 iyun 2014-cü il tarixlərdə İntellektual oyunlar üzrə "Xəzər kuboku" III Beynəlxalq turniri həyata keçirilmişdir. Turnirdə Azərbaycan, Rusiya Federasiyası, Almaniya, İsrail, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Estoniya və Moldovadan olan 53 komanda iştirak etmişdir.

17-18 iyun 2014-cü il tarixlərdə Şəki şəhərində Gənc sənətkarlar arasında Dekorativ Tətbiqi Sənət Müsabiqəsinin yekun sərgisi keçirilmişdir. Sərgidə 100-dən çox müəllifin 150-yə yaxın əsəri nümayiş etdirilmişdir.

Nazirlik "Sonuncu dalan" kompüter oyununun layihəsinin hazırlanmasını dəstəkləmişdir.

12-21 iyul 2014-cü il tarixlərdə X Bakı Beynəlxalq Müəllif Mahnıları Festivalı keçirilmişdir. Festivala 12 ölkədən 100 iştirakçı qatılmışdır.

2014-cü ilin iyul-avqust aylarında Kompüter oyunları üzrə IX Azərbaycan Çempionatı keçirilmişdir. Çempionatda 2500-ə yaxın gənc iştirak etmişdir.

2014-cü ilin iyul – oktyabr ayları ərzində VI Beynəlxalq Uşaq Muğam Festivalı layihəsi həyata keçirilmişdir. Festivala 10 ölkədən - İran, İraq, Misir, Əfqanıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Qazaxıstan və Türkiyədən 80 nəfər iştirakçı qatılmışdır.

29 avqust - 03 sentyabr 2014-cü il tarixlərdə Azərbaycan ŞHK Liqasının yarımfinal və 08-12 noyabr 2014-cü il tarixlərdə isə final oyunları layihəsi həyata keçirilmişdir. Hər oyunda 5 ölkədən - Azərbaycan, Ukrayna, Rusiya Federasiyası, Qazaxıstan və Gürcüstandan olan 15 komanda iştirak etmişdir. Ümumilikdə hər iki oyunda 140 nəfərə yaxın gənc iştirak etmişdir.

2014-cü ilin sentyabr ayında Azərbaycan Milli Elmlər Akademiyasında fənlərarası tədqiqatlara həsr olunmuş "Yay məktəbi" həyata keçirilmişdir.

Hesabat dövründə “Xəmsə" Milli intellektual oyunu üzrə yeniyetmələr arasında III və IV, gənclər arasında VII Azərbaycan Çempionatının televiziya layihələri, o cümlədən "Xəmsə" Milli intellektual oyunu üzrə VII Azərbaycan Çempionatı keçirilmişdir.

"Fort Boyard" televiziya layihəsi hazırlanmış və ATV kanalında yayımlanmışdır.

"Gənc alimlərin əsərləri" elmi məcmuəsinin 9-cu və 10-cu sayları nəşr edilmişdir.

Sağlam həyat tərzinin təbliği və sosial proqramlar

29-31 yanvar 2014-cü il tarixlərdə Ramana, Masazır və Müşviqabadda məcburi köçkünlər üçün yeni salınmış qəsəbələrdə Azərbaycan gəncləri günü ilə əlaqədar bayram tədbirləri keçirilmişdir.

11 fevral 2014-cü il tarixdə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramının icrası üzrə Əlaqələndirmə Şurasının növbəti iclası keçirilmişdir.

2014-cü ilin fevral-aprel aylarında Qobustan, Şamaxı, Ağdaş, Göyçay, Oğuz, Qax, Zaqatala, Balakən rayonlarında və Şəki şəhərində rayon (şəhər) gənclər və idman idarələrində çalışan dövlət qulluqçularının iştirakı ilə “Dövlət qulluğunda korrupsiya hüquqpozmalarına qarşı mübarizə” mövzusunda təlimlər, may-iyun aylarında isə Gəncə, Mingəçevir, Yevlax, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Göygöl, Gədəbəy, Samux şəhər və rayonlarında “Peşəkarlıq və fərdi məsuliyyətin artırılması” mövzusunda seminarlar, sentyabr-oktyabr aylarında Saatlı, Sabirabad, Hacıqabul, Kürdəmir, Ucar, Zərdab rayonlarında “Antikorrupsiya sistemində gənclər arasında qabaqlayıcı tədbirlərin təşkili” mövzusunda treninq kurslar, dekabr ayında isə Biləsuvar, Neftçala, Salyan, Cəlilabad və Masallı rayonlarında “Bədən tərbiyəsi və idman sahəsində hüquqi maarifləndirmə və korrupsiyaya qarşı mübarizə tədbirlərinin təşkili” mövzusunda təlimlər keçirilmişdir.

17 fevral- 27 may 2014-cü il tarixlərdə 10 təhsil müəssisəsi və 11 rayonda/şəhərdə, 17 sentyabr tarixdə Ağsu rayonunda narkomaniya və QİÇS-ə qarşı hazırlanmış “Həyatla oyun”, 19 may 2014-cü il tarixdə Gənc Tamaşaçılar Teatrında, 09 sentyabr 2014- cü il tarixdə Siyəzən rayonunda insan alverinə qarşı mübarizə məqsədilə hazırlanmış “Günahsız günahkarlar” adlı maarifləndirici teatr tamaşaları nümayiş etdirilmişdir.

17 mart 2014-cü il tarixdə Bakı şəhərində məcburi köçkün və sağlamlıq imkanları məhdud yeniyetmə və gənclər üçün Novruz şənliyi keçirilmişdir. Şənlikdə 350 nəfər iştirak etmişdir.

Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə “Oriqami” Uşaq və Yeniyetmələr İctimai Birliyinin “Addım-addım irəli”, gənclər arasında narkomaniyanın yayılmasına qarşı mübarizə məqsədilə “Narkotiklərə Qarşı Təbliğat” İctimai Birliyinin “Sağlam cəmiyyətə doğru” adlı layihələri və “Addım” Yaradıcı Gənclər Assosiasiyasının “Sağlam həyat” Yaradıcılıq sərgisi həyata keçirilmişdir.

01 aprel - 10 iyun 2014 tarixlərdə “İçərişəhər - yaşayan tarix. Keçmişimiz gələcəyimizin təqdimatında” adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində esse müsabiqəsi, animasiya filmlərinin çəkilməsi, “AN” fotomarafonu, “Əks-səda” adlı videoçarxın hazırlanması, “Etüd günü” adlı rəsm müsabiqəsi, “Təqdim et” adlı konfrans və festival təşkil edilmişdir.

12 aprel 2014-cü il tarixdə Binəqədi rayonunda “Sağlamlığını qoru” devizi altında mədəni-kütləvi aksiya keçirilmişdir. Aksiyada fiziki aktivliyin təbliğ olunması məqsədilə gənclərin müxtəlif idman nömrələri, gənc ailələrin yarışları, sərgi və konsert proqramı təşkil edilmişdir.

27-30 aprel 2014-cü il tarixlərdə “Gənclər evi”nin fəaliyyət göstərdiyi rayonlardan olan ictimai fəal gənclər üçün insan hüquqlarına dair videoların hazırlanması üzrə təlim kursu keçirilmiş, may-iyun ayları ərzində 25 qısametrajlı video çarxın çəkilişi aparılmış və onlar arasında müsabiqə keçirilmişdir. 19 iyun 2014-cü il tarixdə çəkilmiş videolar üzrə  müsabiqənin yekun təqdimat mərasimi keçirilmiş və 3 qalib mükafatlandırılmışdır.

2014-cü ilin aprel-may aylarında Şirvan, Sabirabad, Saatlı, İmişli, Cəlilabad, Lerik, Yardımlı, Ağsu, Ucar, İsmayıllı, Xızı, Şabran, Quba şəhər və rayonlarında gənclər və idman idarələrində çalışan dövlət qulluqçularının iştirakı ilə “Dövlət qulluğuna hazırlığın əsasları” mövzusunda təlimlər, noyabr-dekabr aylarında isə Yevlax, Şirvan, Cəlilabad, Lerik, Kürdəmir, Siyəzən, Şabran şəhər və rayonlarında “İdman sahəsində mütəxəssislərin dövlət qulluğuna hazırlığının əsasları” mövzusunda, eyni zamanda Gəncə, Balakən, Qəbələ, Oğuz, Samux şəhər və rayonlarında “Gənclərin dövlət qulluğuna hazırlığının əsasları” mövzusunda treninq kurslar  keçirilmişdir.

Gənc mütəxəssislərin işlə təmin edilməsi məqsədilə 23 may 2014-cü il tarixdə Azərbaycan Dövlət İqtisad Universiteti ilə birgə IX “Məzun 2014” yarmarkası keçirilmişdir. Yarmarkada 97 müəssisə və təşkilat tərəfindən 985 vakant iş yeri təqdim edilmiş, 3000 nəfərə yaxın məzun iştirak etmişdir.

26-27 may 2014-cü il tarixlərdə Heydər Əliyev Mərkəzində “Mənim Azərbaycanım” adlı Festival keçirilmişdir. Festivalda respublikanın rayon və şəhərlərinin gəncləri tərəfindən rayonun inkişafını, mədəniyyətini, tarixini əks etdirən 10 dəqiqəlik təqdimat və  sərgi nümayiş edilmişdir.

30-31 may 2014-cü il tarixlərdə “Bizim sahibkarlıq fəaliyyətimiz (Enactus)” beynəlxalq proqram üzrə IX milli yarış keçirilmişdir. Milli yarışın qalibi Naxçıvan Dövlət Universitetinin “Enactus” komandası, cari ilin oktyabr ayında Çinin paytaxtı Pekin şəhərində keçirilən Dünya kuboku yarışında ölkəmizi təmsil etmişdir.

23 iyun 2014-cü il tarixdə Bakı şəhərində, 08 iyul tarixdə Quba rayonunda “Gənclərin Olimpiya və Sağlamlıq Festivalı” keçirilmişdir.

10 iyun-22 avqust  2014-cü il tarixlərdə Bakı şəhəri Şüvəlan qəsəbəsində yerləşən Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzində sosial müdafiəyə ehtiyacı olan 330 nəfər yeniyetmə və gənclər

üçün 4 növbədə, 10-24 noyabr 2014-cü il tarixlərdə 100 nəfər hemofiliyalı uşaq, gənclər və onların ailə üzvləri üçün, 05 iyul-21 avqust 2014-cü il tarixlərdə Bakı şəhəri Bilgəh qəsəbəsində yerləşən ”Məslək” Əqli və Fiziki Qüsurlu Uşaqlara Qayğı İctimai Birliyinə məxsus düşərgəsində xüsusi qayğıya ehtiyacı olan 150 nəfər uşaq və gənclər üçün 3 növbədə reabilitasiya məqsədli yay düşərgələri təşkil edilmişdir.

11 iyul - 30 sentyabr 2014-cü il tarixlərdə "Savadlı Cəmiyyət" Müasir Təhsilə Dəstək İctimai Birliyi ilə birgə "Gənclərin məşğulluq vəziyyətinin yaxşılaşdırılması" layihəsi həyata keçirilmişdir.

19 noyabr 2014-cü il tarixdə sosial müdafiəyə ehtiyacı olan yeniyetmə və gənclər arasında "İdmanda qələbə -həyatda qələbə!" adlı inklüziv aksiya keçirilmişdir.

24-28 noyabr 2014-cü il tarixlərdə Bakı və Gəncə şəhərlərində "Gənclər və könüllülük: gənclərin sosial həyatda və öz həyatlarına təsir edən qərarların qəbulunda iştirakı" adlı beynəlxalq konfrans keçirilmişdir.

2014-cü ilin yanvar-iyun aylarında "Gənclər üçün krizis telefon xətti" fəaliyyət göstərmiş, 2500-nəfərədək anonim zəng cavablandırılmışdır.

Gənclər təşkilatları ilə iş

"Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 20 noyabr tarixli, 26 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsi üçün nəzərdə tutulmuş "Fərdi elektron pəncərə" elektron məlumat sisteminə mütəmadi olaraq Gənclər və İdman Nazirliyi tərəfindən gənclər təşkilatlarına göstərilən dəstəklə bağlı məlumatlar yerləşdirilmişdir.

30 yanvar - 03 fevral 2014-cü il tarixlərdə Bakı şəhərində "Avropa Hüquqşünas Tələbələr Assosiasiyası (ELSA) - Bakı" İctimai Birliyinin "Norveç - Azərbaycan təhsil səfəri", 01-10 mart 2014-cü il tarixlərdə "Demokratik Gənclər" İctimai Birliyi tərəfindən "Fərqli və Oxşar", "Avropa Tələbələr Forumu-Bakı" İctimai Birliyinin 19-25 mart 2014-cü il tarixlərdə "Novruz" Beynəlxalq Gənclər Festivalı, 06-13 aprel 2014-cü il tarixlərdə Bakı şəhərində Azərbaycan Maarifçi Gənclər Təşkilatının "Avropa gənclər əməkdaşlığının inkişafı", 18-24 aprel 2014-cü il tarixlərdə "Göyçay İnkişaf Mərkəzi" Gənclər İctimai Birliyinin "Nar gənclik meyvəsi kimi", 01-10 iyun 2014-cü il tarixlərdə "Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı" İctimai Birliyi tərəfindən "İncəsənət fəaliyyətdə 2", 12-20 may 2014-cü il tarixlərdə Gəncə şəhərində "Gələcəyə Körpü" Gənclər İctimai Birliyi tərəfindən "İctimai işlərdə aktivlik – vətəndaşlıq təhsili" adlı layihələrin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

"İRƏLİ" İctimai Birliyinin 21 fevral-02 mart 2014-cü il tarixlərdə Qəbələ şəhərində "Azərbaycan gənclərinin liderlik forumu - İKT və yeni fürsətlər", 10 mart 2014-cü il tarixdə Bakı şəhərində "Gənc Sahibkarlar Forumu", 01-11 dekabr 2014-cü il tarixlərdə Quba rayonunda "Könüllüsən-könüllülük

akademiyası" adlı layihələrinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

25-30 fevral 2014-cü il tarixlərdə "Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu"-nun "Sülh və Təhlükəsizlik üçün Beynəlxalq Koalisiya" adlı beynəlxalq layihəsinin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Forumda Ukrayna, İspaniya, Litva, İsrail Rumıniya, İtaliya, Türkiyə, Böyük Britaniya və Vyetnamdan olmaqla, ümumilikdə 13 nəfər, Azərbaycandan isə 3 nəfər gənc iştirak etmişdir.

12-15 mart 2014-cü il tarixlərdə Bakı şəhərində "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqına üzv olan ölkələrin gəncləri arasında "Gənc şairələrin II Beynəlxalq Forumu" və 18-25 aprel 2014-cü il tarixlərdə gənclər arasında "Dialoqa hazır ol" adlı layihələrin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

18-28 mart 2014-cü il tarixlərdə Lənkəran şəhərində Gənclər Təşkilatları Milli Şurasının "Gənclər hökuməti düşərgəsi 2014", 01-11 aprel 2014-cü il tarixlərdə "Gənclər təşkilatlarının bacarıqlarının artrılması 2014", 01-15 iyul 2014-cü il tarixlərdə Bakı şəhərində "Xətdə: Gənclərin Sosial Şəbəkə Akademiyası 2014", 08-24 oktyabr 2014-cü il tarixlərdə "Azərbaycan Könüllülük Xidməti" adlı layihə çərçivəsində "Təcrübə Məktəbi" adlı layihələrin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

08 may 2014-cü il tarixdə Gənclər və İdman Nazirliyi yanında Gənclərlə iş üzrə İctimai Şuranın "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda iclası keçirilmişdir.

"Virtual Qarabağ" İKT Mərkəzi-Qarabağ həqiqətlərinin virtual məkanda yayılması üzrə fəaliyyətləri" adlı layihənin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

Avropa Şurasının "Gənclər kartı vasitəsi ilə gənclərin mobilliyinə dair" Hissəvi Sazişinə qoşulması ilə bağlı üzvlük, "Beynəlxalq Gənclər Palatası Azərbaycan" Təşkilatının "Beynəlxalq Gənclər Palatası"na və Azərbaycan Skautlar Assosiasiyasının Beynəlxalq Skaut Hərəkatı Təşkilatına illik üzvlük haqqlarının ödənilməsinə kömək göstərilmişdir.

01-05 oktyabr 2014-cü il tarixlərdə Avropa Şurası və Gənclər Təşkilatlarının Milli Şurası ilə birgə Qəbələ rayonunda "Nifrət Nitqinə Yox Hərəkatı" Beynəlxalq Gənclər Forumu keçirilmişdir. Forumda 47 ölkədən 250 nəfər iştirak etmişdir.

Avropa İttifaqının "Gənclər fəaliyyətdə" proqramı çərçivəsində 07-13 iyul 2014-cü il tarixlərdə Bakı şəhərində "Sağlam Gəncliyə Doğru" İctimai Birliyi tərəfindən "Daha güclü cəmiyyət üçün əl-ələ" adlı beynəlxalq layihənin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir. Layihədə İtaliya, Gürcüstan, Ukrayna, İspaniya, Rumıniyadan 25 və Azərbaycandan 5 nəfər gənc iştirak etmişdir.

14-20 iyul 2014-cü il tarixlərdə Quba rayonunda Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı tərəfindən "Multikulturalizmin Azərbaycan Modeli" Beynəlxalq Gənclər Forumunun, 20-30 iyul 2014-cü il tarixlərdə Bakı şəhərində "Böyük İpək Yolu" Beynəlxalq Gənclər İttifaqının "Böyük İpək

Yolu Gənclər Düşərgəsi”nin və 20-30 oktyabr 2014-cü il tarixlərdə “Mədəni İnnovasiya – gənclər mükafatı” adlı düşərgələrin keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

Avropa İttifaqının Şərq Tərəfdaşlığı Regional Gənclər Bölməsi ilə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 7 noyabr 2014-cü il tarixdə Bakı şəhərində "Gənclər sektorunda hökumət və vətəndaş cəmiyyətinin əməkdaşlıq potensialının inkişafı" mövzusunda seminar keçirilmişdir. Seminarda Azərbaycanın 15 şəhər və rayonlarından 50 gənc iştirak etmişdir.

“Qarabağın səsi” musiqi albomu və kitabçanın hazırlanması və təqdimatı” adlı layihənin həyata keçirilməsində Gənclər və İdman Nazirliyi payçı kimi iştirak etmişdir.

Tələbə və tələbə-gənclər təşkilatları ilə iş

2014-cü ilin yanvar-may ayları ərzində Bakı şəhərində yerləşən 14, 266, 19, 211, 54, 111, 240, 9, 5, 292, 44, 164 saylı orta məktəblərdə “İşıqlı həyat” sosial yönümlü layihə çərçivəsində məktəblilərlə təbliğat xarakterli görüşlər keçirilmişdir.

13-15 fevral 2014-cü il tarixlərdə Təhsil Nazirliyi və “Mədəd” Təşkilatı ilə birgə məktəblilər arasında “Sabahın alimləri” III Respublika müsabiqəsi keçirilmişdir.

22 fevral 2014-cü il tarixdə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə birgə 26 fevral- Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Mahir nişançı" güllə atıcılığı üzrə turnir keçirilmişdir.

Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı tərəfindən 12-18 fevral 2014-cü il tarixlərdə Mingəçevir şəhərində və 19-25 fevral 2014-cü il tarixlərdə Qəbələ rayonunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə “VIII və IX Liderlik məktəbi”, “Yaşayan tarix 3”, “Danışan kitablar”, “Bilirsənmi?”, "İnsan Hüquqları Akademiyası" və "Avropa Tələbələr Birliyinin idarə heyətinin 67-ci iclası" adlı layihələr həyata keçirilmişdir.

01-19 mart 2014-cü il tarixlərdə “Tələbələr üçün internet jurnalistikası” mövzusunda peşəkar təlim kursları keçirilmişdir.

11 mart 2014-cü il tarixdən başlayaraq 11 sentyabr 2014-cü il tarixədək “İşıqlı həyat” sosial yönümlü layihənin təbliğatının aparılması məqsədilə “Azad Azərbaycan” 106.3 FM radiosunda və “Xəzər” televeziyasında “Avtostop” verilişində “İşıqlı həyat” rubrikası yaradılmışdır.

11-17 aprel 2014-cü il tarixlərdə “Gələcəyə Doğru” Təşəbbüskar Tələbə Gənclər İctimai Birliyinin “Sosial lahiyələndirmə məktəbi” adlı layihəsi Gənclər və İdman Nazirliyi tərəfindən maliyyələşdirilmişdir.

02 may 2014-cü il tarixdə Şəki və 23 avqust 2014-cü il tarixdə isə Bakı şəhərlərində ali təhsil müəssisələrinin tələbələrinin iştirakı ilə ölkəmizdə ilk dəfə "tarixi rekonstruksiya" formatında “Tarixin canlı səhifələri” adlı gənclər festivalları keçirilmişdir.

2014-cü ilin 30 may-03 iyun tarixlərdə Quba rayonunda "Tələbə baharı" Vlll Ümumrespublika tələbə yaradıcılıq Festivalının qala-konserti keçirilmişdir. Festivalda 12 ali təhsil müəssisəsindən 254 nəfər tələbə iştirak etmişdir.

Gənclərin elmə və yüksək texnologiyalara həvəsləndirilməsi məqsədilə 2014-cü ilin yanvar – iyun aylarında keçirilən “İstedadların hazırlığı laboratoriyası” II Respublika Olimpiadasında 3 on - line müsabiqədə 900 nəfər, əyani turda isə 120 nəfər məktəbli iştirak etmişdir. 63 nəfər qalib üçün beynəlxalq olimpiadalara hazırlıq məqsədilə bir həftəlik yay məktəbi təşkil edilmişdir.

02-03 iyun 2014-cü il tarixlərdə gənclərin ali toplantısı - Azərbaycan Gənclərinin VII Forumu keçirilmişdir. Forum çərçivəsində 5 bölmə üzrə respublikanın bütün rayon və şəhərlərindən seçilmiş 1900 nəfər nümayəndə iştirak etmişdir.

30 sentyabr 2014-cü il tarixdə Rusiya Federasiyasının Moskva şəhərində Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) “AMOR: dialoq və fəaliyyət” adlı V Konfransı və ona həsr olunmuş sərgi və mədəni-kütləvi tədbir keçirilmişdir. Forumda 500 nəfər gənc iştirak etmişdir.

Gənclərin sosial təşəbbüskarlığını artırmaq məqsədilə 2014-cü ilin yanvar-may aylarında “On-line fikir bankı” layihəsi həyata keçirilmiş, 150-dən artıq ideya toplanmış və hər ayın “ən yaxşı ideya” müəllifi müəyyən edilmişdir (www.fikirbanki.az).

## İ D M A N

Ölkəmizdə gənc nəslin sağlam ruhda böyüyüb tərbiyə olunması, ölkədə bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, yüksək dərəcəli idmançıların hazırlanması, Olimpiya hərəkatının genişləndirilməsi, idmanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir.

2014-cü ildə respublikada fəaliyyət göstərən federasiyalar ilə birlikdə ölkəmizdə 300-dən çox respublika yarışları (2013-cü ildə 298 yarış) təşkil edilmiş, 55 beynəlxalq yarış (2013-cü ildə 57 yarış) keçirilmişdir. Xarici ölkələrdə keçirilmiş 320 beynəlxalq yarışlarda isə (2013-cü ildə 281yarış) ölkə yığma komandalarının iştirakı təmin olunmuşdur.

2014-cü il ərzində Olimpiya və qeyri-olimpiya idman növləri üzrə rəsmi beynəlxalq yarışlarda - Dünya və Avropa çempionat və birinciliklərində, kubok yarışlarında 275 qızıl, 255 gümüş və 275 bürünc, ümumilikdə isə 805 medal (2013-cüi ildə 782 medal- 280 qızıl, 233 gümüş, 269 bürünc ) əldə edilmişdir. Bunlardan 278 medal (89 qızıl, 80 gümüş, 109 bürünc) olimpiya, 527 medal isə (186 qızıl, 175 gümüş, 166 bürünc) qeyri-olimpiya idman növlərindən olmuşdur.

İdman növləri üzrə yığma komandalar hər biri 12 gündən az olmayaraq 160 təlim-məşq toplanışlarında (2013-cü ildə 154 toplanış) iştirak etmişdir. Bu təlim-məşq toplanışlarından 115-i Azərbaycanda, 45-i isə xarıcı ölkələrdə keçirilmişdir. Təlim-məşq toplanışlarında ümumilikdə 6500 nəfərədək idmançı iştirak etmişdir.

2005-2015-ci illərdə "Azərbaycan Respublikasında futbolun inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı həyata keçirilmiş tədbirlər haqqında arayış  hazırlanmış və araşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 654 №-li, 04 mart 2005-ci il tarixli "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında Sərəncamına əsasən hər il 5 mart tarixində "Bədən tərbiyəsi və idman günü" qeyd edilir. Bununla əlaqədar bu il də Bakı şəhərində və respublikanın bütün şəhər və rayonlarında silsilə tədbirlər həyata keçirilmişdir.

Hərbi xidmətə çağırılmış yığma komanda üzvlərinin MOİK-də, Sərhəd Qoşunlarında və DİN İK-da qulluq etmələri üçün məlumatlar toplanmış, müvafiq təkliflərlə Azərbaycan Respublikasının Müdafiə və Daxili İşlər Nazirliklərinə və Dövlət Sərhəd Xidmətinə müraciətlər olmuşdur.

2014-cü ildə beynəlxalq və respublika yarışlarında dopinq nəzarəti təşkil olunmuşdur. Bundan başqa Azərbaycan idmançıları arasında dopinqə qarşı mübarizənin gücləndirilməsi ilə əlaqədar bir çox idman növləri üzrə  yeniyetmə və gənclərdən ibarət yığma komandaların üzvlərindən dopinqin mövcudluğunun müəyyənləşdirilməsi məqsədilə analiz nümunələri götürülmüş və Moskva Antidopinq Laboratoriyasına göndərilmişdir.

Dünya Antidopinq Agentliyi tərəfindən qadağan olunmuş üsul, vasitə və dərman preparatlarının 2014-cü il üçün yeniləşmiş siyahıları idman federasiyalarına paylanılmışdır.

Azərbaycan yığma komandalarının həkimləri elmi və metodiki yeniliklərlə təmin olunmuşlar. Onlara yeni tibbi və bioloji üsullar haqqında məlumatlar verilmişdir. İdmançılar, həkimlər, məşqçilər və ümumiyyətlə gənclər arasında dopinq haqqında sorğular aparılmış və nəticələr təhlil edilmişdir. Respublika və beynəlxalq səviyyəli yarışlara hazırlıq məqsədilə Azərbaycan yığma komandalarının üzvləri bərpaedici vasitələrlə təmin olunmuşlar.

Mütəmadi olaraq Respublika İdman Tibb, Diaqnostika və Reabilitasiya İnstitutunda müxtəlif idman növləri üzrə yığma komandaların üzvləri tibbi müayinədən keçirilir.

İdman mütəxəssislərinə fəxri adların verilməsi ilə əlaqədar daxil olmuş sənədlərə 2013-2016-cı illər üçün  Azərbaycan Respublikasının Vahid İdman Təsnifatına uyğun olaraq baxılmış və müvafiq qaydada rəy hazırlanaraq fəxri adların, təqaüdlərin verilməsi və sosial vəziyyətin yaxşılaşdırılması komissiyasına təqdim olunmuşdur.

İdman növləri üzrə məşqçi-müəllimlərə ali, I və II  ixtisas kateqoriyasının verilməsi ilə əlaqədar təqdim olunmuş sənədlərə Azərbaycan Respublikasının mövcud Vahid İdman Təsnifatına uyğun olaraq baxılmışdır.  2014-cü il ərzində müxtəlif idman növləri üzrə 98 məşqçi-müəllimə ixtisas kateqoriyası verilmişdir. O cümlədən, 3 nəfər ali, 83 nəfər birinci  və 12 nəfər ikinci ixtisas kateqoriyası almışdır.

44  nəfər "Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi",  85 nəfər "Azərbaycan Respublikasının əməkdar məşqçisi",  7 nəfər  "Azərbaycan Respublikasının əməkdar idman ustası",

32 nəfər “Respublika dərəcəli hakim”  fəxri adları almışlar.  127 nəfər isə “İdman ustası” normasını yerinə yetirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”nın 7.5-ci bölməsinə  əsasən Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı üzrə  2014-2020-ci illər üçün Milli Strategiya layihəsi hazırlanmışdır.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təsdiq etdiyi təqvim planına müvafiq olaraq «Gənclik» Tələbə-İdman Cəmiyyətinin Respublika Şurası ali təhsil məktəblərinin tələbələri arasında 2014-cü ildə idmanın cüdo (kişi), sərbəsrt, yunan-roma güləşi, basketbol (kişi, qadın), həndbol (kişi,qadın), şahmat (kişi,qadın), stolüstü tennis (kişi, qadın), dama (kişi, qadın), voleybol (kişi, qadın), badminton (kişi, qadın), atletika (kişi, qadın), üzgüçülük (kişi, qadın) idman növləri üzrə təhsil müəssisələrinin tələbələri arasında Respublika birinciliyi və  çempionatları keçirilmişdir.

2014-cü ildə Azərbaycanda keçirilmiş əsas beynəlxalq tədbirlər

2014-cü ildə ölkəmizdə 55 beynəlxalq yarış, o cümlədən  Dünya və Avropa çempionatları təşkil edilmişdir. Belə ki, Bakı şəhərində Azərbaycanın beynəlxalq aləmdə təbliği baxımından mühüm əhəmiyyət kəsb edən və 100-dən çox ölkənin nümayəndələrinin iştirakı ilə Dünya İdman Mətbuatı Assosiasiyasının (AIPS) 77-ci konqresi, 38 ölkədən 700-ə yaxın idmançının iştirakı ilə Yeniyetmələrin II Olimpiya Yay Oyunlarına lisenziya xarakterli atletika üzrə Avropa Təsnifat Turniri, 33 ölkənin 500-dən çox gimnast və rəsmi nümayəndə heyətinin iştirakı ilə Bədii gimnastika üzrə  30-cu Avropa çempionatı, taekvondo üzrə Avropa çempionatı və yeniyetmələr arasında Dünya birinciliyi və digər tədbirlər yüksək səviyyədə təşkil edilərək keçirilmişdir. Bundan başqa ölkəmiz elmi-praktik konfranslara, regional kubok yarışlarına, o cümlədən Avropa Olimpiya Komitəsinini növbəti Baş Assambleyasına ev sahibliyi etmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Bakı şəhərində Beynəlxalq İdman Filmləri Festivalı keçirilmişdir.

Ulu öndər Heydər Əliyevin 91-ci ildönümü

Ulu öndər Heydər Əliyevin 91-ci ildönümü münasibətilə müxtəlif idman növləri üzrə bir sıra beynəlxalq turnirlər, o cümlədən, 24 ölkə nümayəndələrinin iştirakı ilə “Tour de Azerbaijan” veloyürüşü, cüdo üzrə Böyük Dəbilqə seriyasının mərhələ yarışı, Naxçıvan şəhərində “Naxçıvan Open-2014” beynəlxalq şahmat festivalı və güləş üzrə beynəlxalq turnir, Mingəçevir şəhərində su polosu, üzgüçülük və basketbol üzrə beynəlxalq turnirlər və avarçəkmə üzrə “Prezident Reqatası”, Qusar rayonunda universal döyüş üzrə “Heydər Əliyev Kuboku”, boks üzrə yeniyetmələr arasında beynəlxalq turnir keçirilmişdir.

İlin əsas idman nailiyyətləri

Yeniyetmələrin II Olimpiya Oyunları

Yeniyetmələrin II Olimpiya Oyunları 14-28 iyul 2014-cü il tarixlərdə Çin Xalq Respublikasının Nanjinq şəhərində keçirilmişdir. 29 idman növü üzrə keçirilmiş yarışlarda 204 ölkədən 3888 idmançı iştirak etmişdir.

Azərbaycan bu oyunlarda 9 idman növündə 21 idmançı ilə təmsil olunmuşdur.

Nəticədə Azərbaycan 5 qızıl, 6 gümüş və 1 bürünc medalla 204 iştirakçı ölkə arasında və medal qazana bilmiş 86 ölkə arasında 10-cu yeri, qazanılmış medalların sayına görə isə (12 medal) 14-cü yeri tutmuşdur. Komandamız Avropa ölkələri arasında 6-cı, MDB ölkələri arasında 3-cü, İslam ölkələri arasında isə 1-ci yerdə olmuşdur.

08-14 sentyabr 2014-cü il tarixlərdə Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilmiş sərbəst güləş üzrə dünya çempionatında Hacı Əliyev yüksək nəticə göstərərək dünya çempionu adını qazanmışdır.

01-04 may 2014-cü il tarixlərdə Bakı şəhərində keçirilmiş taekvondo üzrə Avropa çempionatında Radik İsayev qızıl medal qazanmışdır.

01-08 aprel 2014-cü il tarixlərində güləş üzrə Finlyandiyanın Vantaa şəhərində keçirilmiş kişilər arasında Avropa çempionatında Mariya Stadnik, Hacı Əliyev və Ruslan Dibirqadjiyev Avropa çempionu adını qazanmışlar.

13-21 sentyabr 2014-cü il tarixlərdə şahmat üzrə İspaniyanın Bilbao şəhərində keçirilmiş klublararası Avropa çempionatında Azərbaycanın kişilərdən ibarət "SOCAR Azərbaycan" komandası 2-ci dəfə Avropa çempionu adını qazanmışdır.

01-08 iyun 2014-cü il tarixlərdə Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilmiş boks üzrə Avropa çempionatında Yelena Vistropova qızıl medal qazanmışdır.

"Qarabağ" futbol klubu UEFA liqasında qrup mərhələsində uğurla çıxış edərək, Azərbaycan klubları arasında ilk dəfə olaraq 6 xal toplamışdır.

Ölkəmizdə keçiriləcək nüfuzlu beynəlxalq tədbirlər

2015-ci ildə 12-28 iyun tarixlərində Bakıda I Avropa Oyunları, 10 sentyabr-04 oktyabr tarixlərində isə şahmat üzrə Dünya Kuboku yarışları keçiriləcəkdir.

2016-cı ildə Ümumdünya şahmat Olimpiadası, 2017-cü ildə IV İslam Həmrəyliyi Oyunalrı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının seçmə oyunları və s. tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Təqvim planına əsasən keçirilmiş yerli və beynəlxalq yarışlarda iştirak

03-05 yanvar 2014-cü il tarixlərdə voleybol üzrə qadınlardan ibarət yığma komanda Bakıda keçirilən Dünya çempionatının təsnifat mərhələsində iştirak etmişdir. Komandamız Serbiya, İsrail və Estoniya yığmaları ilə qarşılaşmış və qrupda 1-ci olaraq Dünya çempionatına vəsiqə qazanmışdır.

16-17 yanvar 2014-cü il tarixlərdə Respublika Olimpiya Mərkəzində atletika idman növü üzrə Azərbaycan kuboku təşkil olunmuşdur. Yarışda 6 komandanın 159 idmançısı mükafatlar uğrunda mübarizə aparmışdır. Yarışda Bakı-1 komandası 505 xalla I yeri, Bakı-2 komandası 480 xalla II yeri, Bakı-3 komandası 355 xalla III yeri tutmuşdur.

17-19 yanvar 2014-cü il tarixlərdə sərbəst güləş idman növü üzrə 20 yanvar şəhidi Müşfiq İsayevin xatirəsinə həsr olunmuş yeniyetmələr arasında beynəlxalq turnirdə 7 ölkənin yığma komandasının üzvləri iştirak etmişdir .

21-26 yanvar 2014-cü il tarixlərdə Almaniyanın Münhen şəhərində keçirilmiş beynəlxalq turnirdə güllə atıcılığı üzrə yığma komanda 5 nəfər tərkibdə iştirak etmişdir.

24-25 yanvar 2014-cü il tarixlərdə Respublika Olimpiya Mərkəzində atletika idman növü üzrə 1999-2000-ci il təvəllüdlü yeniyetmələr arasında Azərbaycan birinciliyi keçirilmişdir. Yarışda 9 komandanın 117 idmançısı mükafat uğrunda mübarizə aparmışdır. Neftçi İSM-nin komandası 9567 xalla I, BTİ İOEUGAİM-nin komandası 8816 xalla II və Sumqayıt komandası 5967 xalla III yeri tutmuşdur.

24yanvar-01fevral 2014-cü il tarixlərdə Rusiyanın Həştərxan şəhərində həndbol üzrə qadınlardan ibarət Azərbaycan yığma komandası beynəlxalq turnirdə iştirak etmişdir.

29 yanvar - 04 fevral 2014-cü il tarixlərdə Fransanın Orlean şəhərində qılıncoynatma növü üzrə (sablya qadınlar) keçirilmiş lisenziya xarakterli Qran-Pri Dünya kubokunda yığma komanda iştirak etmişdir.

31 yanvar-03 fevral 2014-cü il tarixlərdə yunan-roma güləşi üzrə Vehbi Əmrənin xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə yığma komandanın üzvləri 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanmışlar.

04-21 fevral 2014-cü il tarixlərdə Qatarın Doha şəhərində keçirilmiş təlim-məşq toplanışında və beynəlxalq turnirdə stend atıcılığı üzrə yığma komanda 13 nəfər tərkibdə iştirak etmişdir.

07-11 fevral 2014-cü il tarixlərdə Fransanın Paris şəhərində qadın güləşi üzrə keçirilən beynəlxalq turnirdə yığma komandamız 2 qızıl medal qazanmışdır.

11-18 fevral 2014-cü il tarixlərdə İran İslam Respublikasının Tehran şəhərində badminton üzrə ənənəvi “Fəcr” turnirində Azərbaycan yığması 2 məşqçi və 9 idmançı ilə təmsil olunmuşdur.

14-17 fevral 2014-cü il tarixlərdə Türkiyənin İstanbul şəhərində sərbəst güləş üzrə keçirilmiş beynəlxalq turnirdə kişilərdən ibarət yığma komandanın 10 idmançısı iştirak etmişdir.

16-22 fevral 2014-cü il tarixlərdə Bərdə şəhərində 12 komandanın iştirakı ilə futbol üzrə respublika turniri keçirilmiş və mükafata layiq yerləri tutmuş komandalara və komanda üzvlərinə qiymətli hədiyyələr və müvafiq diplomlar təqdim olunmuşdur.

19-24 fevral 2014-cü il tarixlərdə Bolqarıstan Respublikasının Sofiya şəhərində keçirilmiş "Don Kolov və Nikola Petronun" xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə sərbəst güləş üzrə kişilərdən ibarət yığma komandanın 9 idmançısı 5 qızıl və 2 bürünc medala sahib olmuşlar.

25 fevral-06 mart 2014-cü il tarixlərdə güllə atıcılığı üzrə yığma komanda 7 nəfər tərkibdə Rusiyanın Moskva şəhərində keçirilmiş Avropa çempionatında iştirak etmişdir.

27 fevral-03 mart 2014-cü il tarixlərdə qadın güləşi üzrə yığma komanda beynəlxalq turnirdə iştirak etmək üçün İsveç Krallığının Klippan şəhərinə ezam olunmuşlar. İdmançılarımız 2 qızıl medala sahib olmuşdur.

2014-cü ilin fevral ayında Yeniyetmələrin IX Respublika Oyunlarının proqramına daxil olan voleybol idman növü üzrə oğlanlar arasında zona yarışları 4 zonada-İsmayıllı, Göyçay, Astara və Şəmkir Olimpiya İdman Komplekslərində keçirilmişdir. Hər zonada 10 komanda iştirak etmişdir. Zona yarışlarının nəticələrinə görə I, II yerləri tutmuş komandalar final mərhələsinə vəsiqə qazanmışlar. Final mərhələsi 8 komandanın iştirakı ilə Balakən Olimpiya İdman Kompleksində keçirilmişdir. Yarışların nəticələrinə görə I yeri Salyan, II yeri Sumqayıt, III yeri Lənkəran komandaları tutmuşdur.

06-09 mart 2014-cü il tarixlərdə yeniyetmələr arasında Xırdalan şəhərində AAF Parkın İdman Kompleksində ağır atletika üzrə Azərbaycan birinciliyi keçirilmişdir. Birincilikdə şəhər və rayonlardan 250 yeniyetmə idmançı iştirak etmişdir.

14-30 mart 2014-cü iltarixlərdə Rusiyanın Xantı-Mansiysk şəhərində "Dünya çempionu" adı uğrunda namizədlərin turnirində həmyerlimiz Şəhriyar Məmmədyarov 14 görüşdən 7 xalla yarışı 4-cü başa vurmuşdur.

15-16 mart 2014-cü il tarixlərdəTürkiyənin Antalya şəhərində keçirilmişcüdoidman növü üzrə yeniyetmələr arasında Avropa kubokunda yığma komandanın üzvləri 3 qızıl, 3 gümüş və 1 bürünc medal qazanmışdır.

15-16 mart 2014-cü il tarixlərdə Portuqaliyanın Koimbra şəhərində keçirilmiş cüdo üzrə gənclər arasında Avropa kubokunda yığma komandanın üzvləri 1 qızıl, 2 gümüş medala sahib çıxmışlar.

19-25 mart 2014-cü il tarixlərdə Bolqarıstan Respublikasının Plovdiv şəhərində keçirilmiş beynəlxalq turnirdə sərbəst və qadın güləşi üzrə gənclərdən ibarət yığma komanda 32 (otuz iki) nəfər tərkibdə iştirak etmişdir. Turnirdə idmançılarımız 3 qızıl, 1 gümüş və 1 bürünc, qadınlar arasında isə 1 qızıl, 1 gümüş, 5 bürünc medal qazanmışlar.

30 mart-05 aprel 2014-cü il tarixlərdə Finlandiyanın Vantaa şəhərində keçirilmiş Avropa çempionatında sərbəst və qadın güləşi üzrə yığma komanda 26 nəfər tərkibdə iştirak etmişdir. Çempionatda idmançılarımız 3 qızıl, 3 gümüş və 4 bürünc medala sahib olmuşlar.

30 mart- 05 aprel 2014-cü il tarixlərdə Bakı Slavyan Universitetinin idman zalında (1998-1999-cu il və daha kiçik təvəllüdlü) oğlan və qızlar arasında badminton üzrə Azərbaycan birinciliyi keçirilmişdir. Birincilikdə 53 oğlan 33 qız iştirak etmişdir.

30 mart-08 aprel 2014-cü il tarixlərdə Rusiyanın  Maykop şəhərində keçirilən beynəlxalq turnirdə həndbol üzrə qadınlardan ibarət yığma komandamız  4 oyunu udub, 1 oyunu uduzaraq II yerə layiq görülmüşdür.

03-07 aprel 2014-cü il tarixlərdə Rusiyanın Medin şəhərində keçirilmiş Avropa birinciliyində universal döyüş idman növü üzrə yığma komandamız  iştirak etmişdir.

05-06 aprel 2014-cü il tarixlərdə Hövsan Olimpiya İdman Kompleksində kempo karate idman növü üzrə 4-cü ənənəvi Respublika birinciliyi və çempionatı keçirilmişdir.

05-06 aprel 2014-cü il tarixlərdə Yunanıstanda keçirilmiş cüdo üzrə gənclər arasında Avropa kubokunda yığma komandanın üzvləri 1 qızıl, 2 gümüş və 2 bürünc medal qazanmışlar.

05-07 aprel 2014-cü iltarixlərdə Bakıda, RŞM (Klub)-da şahmat məsələlərinin əyani həlli üzrə Azərbaycan çempionatı keçirilmişdir. 28 şahmatçının iştirak etdiyi bu yarışda 14 dəfə Azərbaycan çempionu Araz Alməmmədov 15-ci dəfə qalib gəlmişdir. Sumqayıt şahmat məktəbinin nümayəndəsi, ötən ilin qalibi Misrətdin İsgəndərov bu dəfə 2-ci yerlə kifayətlənmişdir. Əyani həll üzrə Azərbaycan yığma komandasının daha bir üzvü Zaur Məmmədov 3-cü yerə çıxmışdır. Qaliblər Azərbaycanı Dünya və Avropa çempionatlarında təmsil etmək hüququ qazanmışlar.

05-16 aprel 2014-cü il tarixlərdə ABŞ-ın Tukson şəhərində keçirilmiş stend atıcılığı üzrə yığma komanda 4 nəfər tərkibdə Dünya kubokunun mərhələsində iştirak etmişdir.

10-14 aprel 2014-cü il tarixlərdə qadın güləşi üzrə yeniyetmə qızlardan ibarət yığma komanda 6 idmançı ilə “Victoriya Cup” beynəlxalq turnirində iştirak etmişdir. Turnidə 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanılmışdır.

12-13 aprel 2014-cü il tarixlərdə Portuqaliyanın Koimbra şəhərində keçirilmiş cüdo üzrə yeniyetmələr arasında Avropa kubokunda idmançılar 4 qızıl, 3 gümüş və 1 bürünc medal əldə etmişlər.

14-17 aprel və 21-24 aprel 2014-cü il tarixlərdə Şirvan və Şəmkir Olimpiya İdman Komplekslərində İdman Məktəblərinin VII Respublika Oyunlarının proqramına daxil olan həndbol üzrə 2000-2001-ci il təvəllüdlü oğlanlar arasında zona yarışları keçirilmiş və 16 komanda iştirak etmişdir.

18-19 aprel 2014-cü il tarixlərdə Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 21-ci Azərbaycan çempionatı keçirilmişdir.

21-27 aprel 2014-cü il tarixlərdə Macarıstanın Budapeşt şəhərində keçirilmiş kempo karate üzrə yığma komandanın 6 üzvü XI Dünya çempionatında iştirak etmişdir.

23-27 aprel 2014-cü il tarixlərdə voleybol üzrə gənc qızlardan ibarət milli yığma komanda Avropa çempionatının seçmə mərhələsində iştirak etmək üçün Bolqarıstanın Samokov şəhərinə ezam

olunmuşdur. Çempionatda 4 komanda Bolqarıstan, Avstriya, Rusiya və Azərbaycan komandası iştirak etmişdir.

23-29 aprel 2014-cü il tarixlərdə Krasnodar vilayətində motokross üzrə Açıq çempionatında yığma komanda 8 nəfər heyətdə iştirak etmişdir.

24-25 aprel 2014-cü il tarixlərdə Fransanın Montpelli şəhərində cüdo üzrə böyüklər arasında Avropa çempionatında yığma komandanın üzvü Elmar Qasımov II yerə, İlqar Müşkiyev isə III yerə çıxmışdır.

24-28 aprel 2014-cü il tarixlərdə Polşanın Varşava şəhərində keçirilmiş sumo idman növü üzrə Avropa çempionatında idmançılarımız 2 qızıl, 3 gümüş və 3 bürünc medal qazanmışdır.

26 aprel 2014-cü il tarixdə Çinin Şenyan şəhərində keçirilmiş triatlon üzrə Asiya Kuboku yarışında idmançımız gümüş medal qazanmışdır.

26-27 aprel 2014-cü il tarixlərdə İtaliyanın Liqnano şəhərində gənclər arasında keçirilən Avropa kubokunda idmançılarımız 1 qızıl, 2 gümüş və 3 bürünc medal qazanmışlar.

27 aprel – 01 may 2014-cü il tarixlərdə Bakı şəhərində Dünya İdman Mətbuatı Assosiasiyasının (AIPS) 77-ci konqresi keçirilmişdir.

28 aprel-05 may 2014-cü il tarixlərdə Fransanın Siqnes şəhərində keçirilmiş sportinq idman növü üzrə yığma komanda 3 nəfər tərkibdə Avropa çempionatında iştirak etmişdir.

29 aprel -05 may 2014-cü il tarixlərdə ABŞ-ın Çikaqo şəhərində keçirilmiş qılıncoynatma idman növü üzrə yığma komandanın üzvü Mikina Sabina sablya növü üzrə qadınlar arasında Dünya kubokunun mərhələ yarışında iştirak etmişdir.

30 aprel-04 may 2014-cü il tarixlərdə Qırğızıstanın Bişkek şəhərində keçirilmiş kikboksinq idman növü üzrə ümummilli lider Heydər Əliyevin 91 illiyinə həsr olunmuş beynəlxalq yarışda yığma komandanın üzvləri iştirak etmişdir.

30 aprel - 04 may 2014-cü il tarixlərdə Bakı şəhəri “Sərhədçi” İdman Olimpiya Mərkəzində taekvondo üzrə Avropa çempionatı keçirilmişdir. Bu çempionatda 40-dan artıq xarici ölkələrin yığma komandası iştirak etmişdir.Yığma komandanın nəticələri:Radik İsayev (87 kq)-I yer, İlkin Şahbazov (74 kq)-III yer,Ramin Əzizov (80 kq) - III yer,Günay Ağakişiyeva (57 kq)- III yer, Fəridə Əzizova (67 kq)- III yer.

03-04 may 2014-cü il tarixlərdə Berlin şəhərində keçirilən cüdo üzrə yeniyetmələr arasında Avropa kubokunda yığma komandanın üzvləri 1 qızıl, 2 bürünc medala sahib çıxmışlar.

03-05 may 2014-cü il tarixlərdə Bakı şəhəri Dövlət Bayrağı Meydanı ərazisində idman dırmanması üzrə Dünya Kuboku keçirilmişdir. Bu yarışda iştirak etmək üçün 150-yə yaxın idmançı və rəsmi nümayəndə heyəti Bakı şəhərinə gəlmişdir. Kişilər arasında Dmitri Şarafudinov (boulderinq), qadınlar arasında isə Anna Şrohr – I yerləri tutmuşlar.

03-06 may 2014-cü il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə gənclər arasında “Naxçıvan kuboku” beynəlxalq turnirində idman heyətimiz iştirak etmişldir.

04-13 may 2014-cü il tarixlərdə Naxçıvan şəhərində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Naxçıvan Open-2014” beynəlxalq şahmat festivalı keçirilmişdir. Festival hər il olduğu kimi “A” , “B” və “C” turnirlərindən ibarət olmuşdur.“A” turnirində dünyanın 8 ölkəsindən reytinqi 2250-dən yüksək olan 50 şahmatçı iştirak etmişdir.

04-15 may 2014-cü il tarixlərdə Yunanıstanın Katerini şəhərində gözdən əlil şahmatçılar Dünya çempionatında iştirak etmişlər.

05-18 may 2014-cü il tarixlərdə Bakı Tennis Akademiyasında ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş tennis üzrə beynəlxalq turnirdə 120-yə yaxın idmançı iştirak etmişdir.

07- 11 may 2014 - cü il tarixlərdə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş velosiped idmanı üzrə “Tour d Azerbaidjan” beynəlxalq turniri keçirilmişdir. Turnir Bakı və Sumqayıt şəhərləri, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Oğuz, Qəbələ və Şəki rayonlarının ərazisindən keçməklə 5 mərhələdən ibarət olmuşdur. Veloturda 23 ölkədən 150-dən çox idmançı iştirak etmişdir.

08-12 may 2014-cü il tarixlərdə voleybol üzrə kişilərdən ibarət milli yığma komanda Avropa çempionatının II seçmə mərhələsində iştirak etmək üçün Makedoniyanın Strumitsa şəhərinə ezam olunmuşdur. Yarışda Makedoniya, Gürcüstan, İsveç və Azərbaycan komandaları mübarizə aparmışdır. Yığmamız qrupda Makedoniya və İsveç komandalarına məğlub olmuş, Gürcüstan komandasına isə 3:1 hesabı ilə qalib gəlmişdir.

08-12 may 2014-cü il tarixlərdə Bolqarıstanın Samiokov şəhərində keçirilmiş yunan-roma güləşi üzrə lisenziya xarakterli Avropa birinciliyində yığma komanda iştirak etmişdir.

09-12 may 2014-cü il tarixlərdə Şirvan Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş üzgüçülük üzrə beynəlxalq turnirdə 75 idmançı arasında yığma komandamızın idmançıları 8 qızıl, 6 gümüş və 14 bürünc medal qazanmışlar.

13-17 may 2014-cü il tarixlərdə İranın Tehran şəhərində keçirilən yunan-roma güləşi üzrə Dünya kuboku yarışlarında yığma komandanın üzvləri iştirak etmişdir.

14-19 may 2014-cü il tarixlərdə İspaniyanın Santa-Sussana şəhərində qadınlar və kişilər arasında bodibildinq üzrə keçirilmiş Avropa çempionatında yığma komandanın 10 nəfər üzvü iştirak etmiş, yarışda Teymur Aslanov (70 kq)- II yer, Vüqar Verdiyev (90 kq) -III yer və Yelena Kirşına (168sm) - II yeri tutmuşdur.

15-19 may 2014-cü il tarixlərdə Rumıniyanın Buxarest şəhərində keçirilmiş sambo idman növü üzrə milli yığma komanda Avropa çempionatında iştirak etmişdir.

16 -23 may 2014-cü il tarixlərdə Xaçmaz Olimpiya İdman Kompleksində Respublika gününə həsr olunmuş kişilər arasında voleybol üzrə Respublika çempionatında 16 komandanın idmançıları iştirak etmişlər.

17-18 may 2014-cü il tarixlərdə Polşanın Belsko-Biyalo şəhərində  keçirilmiş yeniyetmələr arasında cüdo üzrə Avropa kubokunda idmançılar  1qızıl, 2 gümüş və 4 bürünc medal qazanmışlar.

18-25 may 2014-cü il tarixlərdə Bakı şəhəri "Sərhədçi" İdman Olimpiya Mərkəzində qol güləşi üzrə XXIV Avropa çempionatında 31 ölkənin 700-dən çox idmançısı iştirak etmişdir. Yarışda idmançılarımızdan Ramazan Rutamov (60 kq), Qismət Vəkilov (60 kq), Minəbəddin Qurbanov (+100 kq), Əməli Hüseyn (60 kq), Toğrul Şahlarlı (65 kq), Vilayət Namazzadə (65 kq), Mirtaleh Aslanov (+110 kq) I yerləri tutmuşlar.

22-26 may 2014-cü il tarixlərdə Fransanın Paris şəhərində keçirimiş idman rəqsləri üzrə Avropa çempionatında yığma komandanın 3 nəfər  üzvü  iştirak etmişdir.

23-26 may 2014-cü il tarixlərdə İsveçin Lund şəhərində keçirilmiş ciu-citsu idman növü üzrə yığma komandanın üzvləri Avropa çempionatında 2 gümüş medal qazanmışlar.

24-28 may 2014-cü il tarixlərdə Mingəçevir şəhərində "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə respublika çempionatının final yarışları keçirilmişdir. Respublika çempionatında 105 idmançı iştirak etmişdir.

31 may-01 iyun 2014-cü il tarixlərdə Avstriyanın Libnitz şəhərində cüdo üzrə gənclər arasında Avropa kuboku keçirilmişdir. Kubok yarışlarında yığma komandanın üzvləri 3 qızıl, 2 gümüş və 1 bürünc medal əldə etmişlər.

06-08 iyun 2014-cü il tarixlərdə Xaçmaz rayonunun Nabran qəsəbəsində "Uşaqların Beynəlxalq Müdafiəsi Günü"nə həsr olunmuş "Ata, ana və mən turist ailəsiyik" üzrə Respublika çempionatı keçirilmişdir.  Çempionatda müxtəlif cəmiyyətlərdən 45-dən çox ailə iştirak etmişdir.

10-16 iyun 2014-cü il tarixlərdə Bakı şəhərində poverliftinq idman növü üzrə Avropa çempionatında 35 ölkənin idmançıları iştirak etmişdir.

13-15 iyun 2014-cü il tarixlərdə Bakı şəhərində bədii gimnastika üzrə  30-cu Avropa çempionatında 33 ölkənin 500-dən çox gimnastı və rəsmi nümayəndə heyətləri iştirak etmişdir.

14-23 iyun 2014-cü il tarixlərdə Polşanın Katovitse şəhərində keçirilmiş sərbəst və qadın güləşi üzrə gənclərin Avropa çempionatında yığma komandanın üzvləri iştirak etmişdir.

21-22 iyun 2014-cü il tarixlərdə  Şağan Olimpiya İdman Kompleksində kyokuşinkay kontakt karate idman növü üzrə Avrasiya çempionatı keçirilmişdir.

21-29 iyun 2014-cü il tarixlərdə qocyu-ryu üzrə yığma komanda 12 (on iki) nəfər tərkibdə Avropa çempionatında iştirak etmək məqsədi ilə Bolqarıstanın Varna şəhərinə ezam olunmuşdur.

25 iyun – 01 iyul 2014-cü il tarixlərdə Bolqarıstanın Qızıl Qum şəhərində keçirilmiş MMA (qarışıq döyüş növləri) üzrə Dünya kubokunda yığma komandamız 6 qızıl medal qazanmışdır.

04-06 iyul 2014-cü il tarixlərdə Afinada keçirilmiş Avropa çempionatında cüdo idman növü üzrə yeniyetmələr arasında idmançılarımız 2 qızıl, 1 gümüş medal qazanmışlar.

12-13 iyul 2014-cü il tarixlərdə Tümendə keçirilmiş cüdo üzrə böyüklər arasında Qrand-Şlem beynəlxalq yarışında idmançılarımız qızıl və bürünc medala layiq görülmüşlər.

14-19 iyul 2014-cü il tarixlərdə Rusiyanın Medın şəhərində keçirilmiş universal döyüş üzrə Avropa birinciliyində idmançılarımız 1 gümüş, 10 bürünc medal əldə etmişlər.

15-20 iyul 2014-cü il tarixlərdə Slovakiyanın Snina şəhərində keçirilən yunan-roma, sərbəst və qadın güləşi üzrə Dünya birinciliyində yeniyetmələrdən ibarət yığma komandamız 2 qızıl, 6 gümüş, 3 bürünc medalla vətənə dönmüşdür.

30 iyul 2014-cü il tarixdə Madriddə triatlon idman növü üzrə keçirilmiş Açıq İspaniya çempionatındaidmançımız 1-ci yerə layiq görülmüşdür.

03-12 avqust 2014-cü tarixlərdə Xorvatiyanın Zaqreb şəhərində keçirilmiş Dünya çempionatında sərbəst, yunan-roma və qadın güləşi üzrə gənclərdən ibarət yığma komandasında yunan-roma güləşi üzrə dörd nəfər 1-ci yeri, bir nəfər 2-ci yeri, sərbəst güləş üzrə bir nəfər 1-ci yeri, iki nəfər 3-cü yeri tutmuş, qadın güləşi üzrə bir nəfər 1-ci yeri, iki nəfər isə 3-cü yeri tutmuşdur.

05-10 avqust 2014-cü il tarixlərdə Xorvatiyanın Zaqreb şəhərində keçirilən yunan-roma, sərbəst və qadın güləşi üzrə gənclərdən ibarət yığma komandamız Dünya birinciliyində 6 qızıl, 3 gümüş, 3 bürünc medal əldə etmişdir.

06-07 avqust 2014-cü il tarixlərdə Milli Gimnastika Arenasında idman gimnastikası və akrobatika gimnastikası üzrə 21-ci Azərbaycan çempionatı və tamblinq üzrə Azərbaycan birinicliyi keçirilmişdir.

16-26 avqust 2014-cü il tarixlərdə Belarusun Brest şəhərində keçirilən su polosu üzrə kişilərdən ibarət yığma komandamız beynəlxalq turnirdə iştirak etmiş və 6 komanda arasında 1-ci yerə layiq görülmüşdür.

25-27 avqust 2014-cü il tarixlərdə Çin Xalq Respublikasının Nanjinq şəhərində keçirilmiş Yeniyetmələrin Olimpiya Oyunlarında sərbəst güləş üzrə idmançılarımızdan iki nəfər 1-ci yer, qadın güləşi üzrə bir nəfər 2-ci yeri tutmuşlar.

25-31 avqust 2014-cü il tarixlərdə Moldovanın Kişinyov şəhərində keçirilmiş Avropa birinciliyində universal döyüş üzrə yığma komandamız 5 qızıl, 4 gümüş, 5 bürünc medal qazanmışdır.

25 avqust-02 sentyabr 2014-cü il tarixlərdə Rusiyanın Maykop şəhərində keçirilmiş beynəlxalq turnirdə həndbol üzrə qadınlardan ibarət Azərbaycan yığma komandası 5 komanda arasında II yeri tutmuşdur.

08-14 sentyabr 2014-cü il tarixlərdə Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilmiş yunan-roma, sərbəst və qadın güləşi üzrə Dünya çempionatında böyüklərdən ibarət yığma komandamızın üzvlərindən sərbəst güləş üzrə bir nəfər 1-ci yer, bir nəfər 2-ci yer, qadın güləşi üzrə

bir nəfər 2-ci yer, bir nəfər 3-cü yer, yunan-roma güləşi üzrə bir nəfər 2-ci yer, iki nəfər 3-cü yeri tutmuşdur.

09-21 sentyabr 2014-cü il tarixlərdə Belçikanın Antverp şəhərində keçirilmiş Avropa Xüsusi Yay Oyunlarında 7 idman növü -atletika, üzgüçülük, cüdo, stolüstü tennis, badminton və basketbol üzrə Azərbaycan idmançıları 8 qızıl, 8 gümüş, 4 bürünc medal qazanaraq, ümumi komanda hesabında V yerə layiq görülmüşlər.

06-08 oktyabr 2014-cü il tarixlərdə Rusiyanın Medın şəhərində keçirilən universal döyüş üzrə Dünya birinciliyində yığma komandamızın 18-20 yaş arasında olan idmançıları 5 qızıl, 6 gümüş, 1 bürünc medal əldə etmişlər.

16-19 oktyabr 2014-cü il tarixlərdə Ukraynanın Lvov şəhərində keçirilən MMA (qarışıq döyüş növləri) üzrə Dünya çempionatında yığma komandanın üzvləri 4 qızıl, 2 gümüş medal qazanmışlar.

24-26 oktyabr 2014-cü il tarixlərdə Böyük Britaniyanın Mançester şəhərində keçirilmiş böyüklər arasında taekvondo üzrə Qran-Pri turnirində Azərbaycan yığma komandası 1 bürünc medal qazanmışdır.

24-28 oktyabr 2014-cü il tarixlərdə Türkiyənin İstanbul şəhərində keçirilən universal döyüş üzrə IV Dünya festivalında idmançılarımız 5 qızıl, 4 gümüş, 2 bürünc medal qazanmışlar.

28 oktyabr – 03 noyabr 2014-cü il tarixlərdə İtaliyanın Marina di Karrara şəhərində keçirilən Dünya çempionatında kempo idman növü üzrə yığma komandamızın üzvləri 3 qızıl, 4 gümüş, 2 bürünc medal qazanmışlar.

10-16 noyabr 2014-cü il tarixlərdə ABŞ-da poverliftinq üzrə keçirilmiş Dünya çempionatında idmançılarımız 9 qızıl, 4 gümüş, 1 bürünc medal əldə etmişlər.

16-23 noyabr 2014-cü il tarixlərdə Gürcüstanın 25-ci Açıq çempionatının I turunda həndbol üzrə kişilərdən ibarət yığma komandamız II yeri tutmuşdur.

25-26 noyabr 2014-cü il tarixlərdə Türkiyə Respublikasının Antalya şəhərində keçirilmiş yeniyetmə, gənclər və böyüklər arasında taekvondo üzrə Klublararası Avropa çempionatında Azərbaycan yığma komandası 5 qızıl, 3 gümüş, 6 bürünc medal qazanmışdır.

28-30 noyabr 2014-cü il tarixlərdə Türkiyə Respublikasının Antalya şəhərində gənclər arasında taekvondo üzrə "Turkish Open" beynəlxalq turnirində Azərbaycan yığma komandası 3 qızıl, 2 gümüş, 5 bürünc medal qazanmışdır.

2014-cü ildə Bakı şəhərində boks idman növü üzrə 4 respublika və 3 beynəlxalq yarış keçirilmişdir. "Böyük ipək yolu" beynəlxalq turnirində 200-dən çox idmançı mübarizə aparmışdır. Yarışda idmançılarımız 3 qızıl, 5 gümüş, 6 bürünc medal qazanmış və komanda 1-ci yerə layiq görülmüşdür.

Boks üzrə "Heydər Əliyev kuboku" beynəlxalq turnirində idmançılarımız 5 qızıl, 1 gümüş, 8 bürünc medala sahib olmuşlar. "Abbas Ağalarov 2015" beynəlxalq turnirində isə 10 ölkənin idmançıları iştirak etmişdir. İdmançılarımız bu turnirdə 2 gümüş və 3 bürünc medal qazanmışlar.